# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
# FƏRMANI

**Azərbaycan Respublikasının Prezidentinin 2010-cu il 19 fevral tarixli 223 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 19 fevral tarixli 223 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi"ndə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, №2, maddə 87) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Aşağıdakı məzmunda 3.1.7.-1-ci yarımbənd əlavə edilsin:

"3.1.7.-1. qrant layihələri çərçivəsində elmi məqsədlər üçün tələb olunan əsas vəsaitlər (elmi cihazları, avadanlıq və qurğuları, elmi fəaliyyət üçün məmulatları, ləvazimat və qeyri-maddi aktivləri və s.), iş və xidmətləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun satın alaraq, layihə icraçılarına təyinatı üzrə istifadə üçün təhvil verir;";

1.2. 5.7-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.8-ci bənd əlavə edilsin:

"5.8. Maddi formada verilən bütün qrantların dəyəri Fond üçün maliyyə ili ərzində dövlət büdcəsindən ayrılmış ümumi məbləğin 35 faizindən artıq ola bilməz.";

1.3. 6-cı hissə üzrə:

1.3.1. 6.2-ci bənddə "doqquz" sözü "on bir" sözləri ilə əvəz edilsin;

1.3.2. 6.3-cü bənddə "Şura" sözü "Şuranın sədri və" sözləri ilə əvəz edilsin;

1.3.3. 6.8-ci bənddə "sədri və" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, “ 20 ” noyabr 2014-cü il
№ 364